**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**Akademik H.Ə. ƏLİYEV adına COĞRAFİYA İNSTİTUTU**

*Əlyazması hüququnda*

**MƏHƏMMƏDKAZIM MƏHƏMMƏDCƏFƏR OĞLU CƏMŞİDİ**

# İRAN İSLAM RESPUBLİKASININ ZƏNCAN OSTANINDA İNFRASTRUKTUR SAHƏLƏRİNİN İNKIŞAFININ İQTİSADİ-COĞRAFİ PROBLEMLƏRİ

5401.01 – İqtisadi coğrafiya

Coğrafiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunan dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2016**

**Dissertasiya işi AMEA akad. H.Ə. Əliyev adina Coğrafiya İnstitutunun "Azərbaycanın əhalisi və sosial inkişafı coğrafiyası" şöbəsində yerinə yetirilmişdir**

**Elmi rəhbər:** coğrafiya üzrə elmlər doktoru
**Z.N.Eminov**

**Rəsmi opponentlər:** coğrafiya üzrə elmlər doktoru, professor
**A.A.Qurbanzadə**

texnika üzrə fəlsəfə doktoru, docent
**F.Ə.Mirzəyev**

**Aparıcı təşkilat:** **ADİU-nun "Ətraf mühitin mühafizəsi və iqtisadiyyatı" kafedrası**

Müdafiə 22 aprel 2016-cı il saat 14.00-da Azərbaycan Milli Elmlər Akademiyası akademik H.Ə. Əliyev adına Coğrafiya İnstitutunun nəzdində fəaliyyət göstərən D01.091 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

*Ünvan: Az. 1143, Bakı, H.Cavid prospekti 115, Akademiyanın əsas binası, 8-ci mərtəbə, akademik H.Ə. Əliyev adına Coğrafiya İnstitutu.*

Dissertasiya ilə AMEA akademik H.Ə. Əliyev adına Coğrafiya İnstitutunun kitabxanasında tanış olmaq olar.

Möhürlə təsdiq olunmuş rəyləri iki nüsxədə bu ünvana göndərməyiniz xahiş olunur: Az. 1143, Bakı, H.Cavid prospekti 115, Akademiyanın əsas binası, 8-ci mərtəbə, akademik H.Ə. Əliyev adına Coğrafiya İnstitutu.

Avtoreferat 18 mart 2016-cı ildə göndərilmişdir.

**D01.091 DŞ-nın elmi katibi,**
**coğrafiya üzrə fəlsəfə doktoru,**
**dosent:** **Həsənov M.S.**

# GİRİŞ

**Mövzunun aktuallığı.** Regionların iqtisadi və sosial-demoqrafik inkişaf səviyyəsində olan uyğunsuzluğun azaldılması və onların davamlı inkişafının təmin edilməsi vacib vəzifə kimi qarşıda durur. Bu sahədə problemlərin həll edilməsi üçün regionlarda olan təbii-coğrafi potensial və təbii ehtiyatların təsərrüfat dövriyyəsinə cəlb edilməsi, yeni iş yerlərinin yaradılması, demoqrafik potensialdan yerlərdə istifadə edilməsi və saxlanılması məqsədəmüvafiqdir. Paytaxt regionu ilə periferiyalar arasındakı əlaqələrin, şəhərlərin region əmələ gətirmə qüvvəsinin səmərəli yönəldilməsi üçün maddi istehsal sahələri ilə yanaşı, infrastruktur sahələrinin də inkişafı xüsusi əhəmiyyət kəsb edir. Sənayenin inkişaf etdirilməsi, ASK-ya aid olan müəssisələrin yaradılması, onların xammal, işçi qüvvəsi ilə təmin edilməsi, hazır məhsulların daşınması və saxlanılması üçün nəqliyyat-kommunikasiya şəbəkəsi ilə yanaşı, anbarlar, saxlama kameraları, enerji, su və istilik təminatı da vacib şərtlərdəndir.

İnfrastruktur - təsərrüfat sahələrinin fəaliyyətini, əhaliyə göstərilən sosial-mədəni, məişət, təhsil və tibbi xidmətlərin səviyyəsini müəyyən edir. Ona görə bu sahələrin fəaliyyətinin təmin edilməsi, yeni obyektlərin yaradılmasının elmi əsaslarının işlənib hazırlanması, bu istiqamətdə tədbirlərin həyata keçirilməsi üçün təbii-coğrafi amillərin müəyyən edilməsi, iqtisadi potensialdan asılılığının öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir.

İnfrastruktur sahələrinin inkişafı maddi istehsal sahələrinin inkişaf səviyyəsindən, əldə edilən gəlirlərin miqdarından asılıdır. Eyni zamanda təsərrüfat sahələrinin inkişafı, əhaliyə xidmət göstərilməsi və yeni ərazilərin mənimsənilməsi nəqliyyat-kommunikasiya şəbəkəsi və xidmət obyektlərinin yaradılmasını zəruri edir. Bu istiqamətdə tədbirlərin həyata keçirilməsi elmi-tədqiqat işlərinin də aparılması zərurətini yaradır.

İran İslam Respublikasında ostanların inkişaf səviyyəsi, sosial-demoqrafik potensialı arasında kəskin fərqlər hələ də qalır. Bu fərqlər Zəncan ostanında da özünü göstərir. Ölkənin təsərrüfat sistemində, demoqrafik və iqtisadi potensialında ostanın rolu hələ də aşağı olaraq qalır.

Bu göstəricilərin yüksəldilməsi üçün sənaye və kənd təsərrüfatı ilə yanaşı, infrastruktur sahələrinin də inkişaf etdirilməsi məqsədilə layihələr hazırlanması, onların yerinə yetirilməsi üçün dövlət vəsaitləri ilə yanaşı, fərdi sahibkarların da maliyyə imkanlarından istifadə edilməsi zəruridir.

Zəncan ostanının əlverişli iqtisadi-coğrafi və nəqliyyat-coğrafi mövqedə yerləşməsini nəzərə alaraq regional əhəmiyyətli nəqliyyat şəbəkəsinin müasir tələblər səviyyəsində qurulması, onların buraxıcılıq

qabiliyyətinin yüksəldilməsi vacibdir. Bunun üçün yenidənqurma işlərinin aparılması, yeni kommunikasiya şəbəkəsinin yaradılmasının elmi əsaslarının işlənib hazırlanması günün vacib tələbləridir. Aparılan işlər əhalinin həyat səviyyəsinin yüksəldilməsi və onlara göstərilən xitmətlərin çeşıdi və keyfiyyətinin artırılması, yeni iş yerlərinin yaradılması üçün də mühüm əhəmiyyət kəsb edir.

**Tədqiqatın obyekti və predmeti**. Dissertasiyanın tədqiqat obyekti İran İslam Respublikasının şimal-qərbində yerləşən Zəncan ostanında infrastruktur sahələrinin müasir inkişaf vəziyyəti və ərazi təşkilinin iqtisadi-coğrafi problemləridir.

Dissertasiyanın **predmeti** isə Zəncan ostanında infrastruktur sahələrinin inkişafında təbii-coğrafi, iqtisadi-coğrafi amillərin rolu, onların inkişaf perspektivlərinin müəyyən edilməsi, təsərrüfatın inkişafı və əhaliyə göstərilən xitmətlərin yüksəldilməsində onların rolunun öyrənilməsidir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqat işinin **məqsədi** İran İslam Respublikasının şimal-qərbində yerləşən Zəncan ostanında infrastruktur sahələrinin inkişafının, müasir ərazi təşkilinin, bu sahələrin fəaliyyətində olan problemlərin müəyyən edilməsi, onların inkişaf perspektivlərinin müəyyənləşdirilməsi və müvafiq elmi-praktiki təkliflər işləyib hazırlamaqdır.

Bu **məqsədlərə** nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- Zəncan ostanında infrastruktur sahələrinin təsərrüfatın inkişafında əhəmiyyətinin öyrənilməsi və onların bu sahədə rolunun artılrılması istiqamətlərinin müəyyən edilməsi;
- infrastruktur sahələrinin inkişafına təsir edən təbii-coğrafi amillərin rolunun öyrənilməsi, yeni şəbəkələrinin yaradılması üçün əlverişli imkanların və istiqamətlərin müəyyənləşdirilməsi;
- təsərrüfat sahələrinin səmərəli ərazi təşkili və strukturunun formalaşması üçün infrastruktur sahələrinin rolunun müəyyən edilməsi;
- əhaliyə göstərilən sosial-mədəni, məişət, təhsil və tibbi xidmətlərin səviyyəsinin yüksəldilməsi üçün bu sahəyə aid obyektlər şəbəkəsinin müasir tələblər səviyyəsində qurulması yollarının müəyyənləşdirilməsi;
- infrastrukturun mühüm sahəsi olan turizm təsərrüfatının ərazi təşkilinin öyrənilməsi, onun inkişafına təsir göstərən təbii-iqtisadi amillərin rolunun, əlverişli yerlərin, təbii-coğrafi və mədəni-tarixi obyektlərin istifadə edilməsi yollarının öyrənilməsi, bu sahə üçün infrastruktur bazası yaradılması istiqamətlərinin müəyyən edilməsi;

- infrastruktur sahələrinin perspektiv inkişafının müəyyən edilməsi, onların potensialının öyrənilməsi, səmərəli ərazi təşkili istiqamətlərinin elmi əsaslarının işlənib hazırlanması.

**Problemin öyrənilməsi səviyyəsi**. Zəncan ostanı uzun illər İran İslam Respublikasının mühüm tərkib hissəsi kimi fiziki-coğrafi və iqtisadi-coğrafi cəhətdən öyrənilmişdir. Ölkənin paytaxtı ilə yanaşı, ostanda fəaliyyət göstərən ali təhsil mərkəzlərində də ostanın coğrafiyası sahəsində tədqiqatlar aparılmışdır. Onun relyefi, iqlimi, daxili suları, torpaq-bitki örtüyü, turizm potensialı, iqtisadi coğrafiyası haqqında elmi tədqiqatlar vardır.

Bununla yanaşı, Zəncan ostanında təsərrüfatın ayrı-ayrı sahələrinin, o cümlədən infrastrukturun öyrənilməsinə elmi-tədqiqatlarda toxunulmamışdır. Ona görə bu sahədə tədqiqat işlərinin aparılması mühüm elmi-nəzəri və praktiki əhəmiyyətə malikdir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqat prosesində infrastruktur sahələrinin inkişafı, təbii-coğrafi şəraitin imkanları və sosial-iqtisadi potensialdan istifadə edilməsi sahəsində İran İR-də, xarici ölkələrdə tədqiqat işləri aparmış alimlərin və mütəxəssislərin əsərlərindən geniş istifadə edilmişdir. Amerika, Qərbi Avropa ölkələri, həmçinin Azərbaycanda infrastruktur sahəsində tədqiqatları olan alimlərin əsərləri dissertasiyanın nəzəri-metodoloji əsaslarını təşkil edir.

Tədqiqatın aparılması zamanı ümumiləşdirmə, tarixilik, müqayisəli təhlil, xəritələşdirmə, stastistika, sistemli yanaşma, çöl-tədqiqat, qruplaşdırma və s. kimi tədqiqat metodlarından istifadə edilmişdir.

**Tədqiatın informasiya bazası və məlumat mənbələri.** Dissertasiya işində İranın şimal-qərb hissəsində yerləşən Zəncan ostanı Statistika İdarəsinin məlumatları, qanunvericilik və normativ aktları, həmçinin təsərrüfatın ərazi təşkilinin praktiki üsul və yollarından istifadə edilmişdir. İşin ilkin informasiya bazasını müəllif tərəfindən aparılan iqtisadi-coğrafi tədqiqatların nəticələri təşkil edir.

Bundan başqa, İranın elmi-tədqiqat institutları, nazirlik və komitələrin materiallarından istifadə edilmişdir. İqtisadi və sosial inkişaf sahəsində Kompleks İnkişaf Proqramları tədqiqat obyektinin sistemli şəkildə öyrənilməsinə və inkişaf proqnozlarının hazırlanmasına kömək etmişdir.

**Müdafiə olunan müddəalar**:

- infrastrukturun təsərrüfat strukturunda yeri, onun sahə və ərazi strukturunun təkmilləşdirilməsi, rolunun yüksəldilməsinin iqtisadi-coğrafi məsələləri;
- infrastruktur sahələrinin yaradılması və ərazi təşkilinin təbii-coğrafi və sosial-iqtisadi bazası;

- Zəncan ostanında infrastruktur sahələrinin ərazi təşkilinin müasir vəziyyəti, onların fəaliyyətində olan problemlər və onların aradan qaldırılması yolları;

- təsərrüfat sahələrinin fəaliyyəti və əhaliyə göstərilən xidmətlərin yüksəldilməsi üçün infrastruktur obyektlərinin səmərəli ərazi təşkili yollarının müəyyən edilməsi, göstərilən xidmətlərin yüksəldilməsi yolları.

**Tədqiqatın elmi yenilikləri**:

- ilk dəfə olaraq ərazinin infrastruktur sahələrinin təsərrüfat əhəmiyyəti və ərazi təşkilinin problemləri iqtisadi-coğrafi tədqiqat obyekti kimi öyrənilmişdir;

- ilk dəfə olaraq Zəncan ostanında infrastruktur sahələrinin müasir inkişafının iqtisadi-coğrafi problemləri və onların həlli yolları tədqiq edilmişdir;

- təsərrüfat sahələrinin inkişafında, əhaliyə göstərilən sosial-mədəni, məişət, tibbi və turizm xidmətinin yüksəldilməsində bu sahələrin rolu və əsas inkişaf istiqamətləri müəyyənləşdirilmişdir;

- SWOT proqramından istifadə edilməsi əsasında Zəncan ostanında təsərüfat sahələrinin inkişafında rolu olan amillər müəyyən edilmiş, onların əhəmiyyəti göstərilmişdir.

**Tədqiqatın elmi-praktiki əhəmiyyəti.** Dissertasiya işində müəllif tərəfindən irəli sürülən təkliflər, tədqiqat zamanı əldə edilmiş elmi nəticələr ostanda infrastruktur sahələrinin idarə edilməsi, proqramların işlənib hazırlanması, onların yerinə yetirilməsinin təkmilləşdirilməsi üçün praktiki əhəmiyyətə malikdir.

Uzun illər ərzində İran İslam Respublikasının regionları, o cümlədən Zəncan ostanında təsərrüfatın inkişafı sahəsində bir sıra layihələr tərtib edilməsində dissertasiyada olan materiallardan, əldə edilmiş nəticələrdən istifadə edilmişdir.

Tədqiqatın nəticələri, infrastruktur sahələrinin imkanlarının qiymətləndirilməsi və proqnozlar verilməsi haqqında məlumatlar bu sahədə normativ-hüquqi göstəricilərin işlənib hazırlanması zamanı istifadə edilə bilər. Dissertasiya işində olan materiallar və alınmış nəticələr müvafiq ali təhsil müəssisələrində təsərrüfatın ərazi təşkili istiqamətində mütəxəssislərin hazırlanması üçün nəzəri və praktik cəhətdən faydalı ola bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası**. İranın şimal-qərbində yerləşən Zəncan ostanında təsərrüfatın müasir vəziyyəti, onun ərazi təşkilini müəyyən edən təbii-iqtisadi amillərin əhəmiyyəti, inkişafında olan problemlər, səmərəli ərazi təşkili sahəsində aparılmış tədqiqatların nəticələri aşağıdakı konfranslarda dinlənilmişdir:

► "Təbii-təsərrüfat sistemlərinin ekoloji təhlükəsizliyinin təminatının coğrafi problemləri", Bakı, 2009.

► “Qloballaşma və coğrafiya” mövzusunda beynəlxalq elmi praktiki konsrans. BDU. Bakı, 2012

► “Müasir geosistemlərin regional-coğrafi problemləri”, Bakı, 2012.

► “Internatoinal Conferense on Religious Turizm and Tolerance”, 9-12 may, Konya, Turkey, 2013.

► “Qlobal dəyişkənliklər şəraitində geosistemlərin təbii ehtiyat potensialının qiymətləndirilməsi və səmərəli istifadəsi”, Bakı, 2013.

►“İran İR-in Qeşm adasında kənd təsərrüfatı sektorunun gücləndirilməsi”, Zəncan, 2013.

► “Coğrafiya: nəzəriyyə, praktika və innovasiya”, Bakı, 2015.

► “Müasir qlobal dəyişmələrə geo- və təbii-təsərrüfat sistemlərinin adaptasiyası problemləri”, Bakı, 17-18 sentyabr 2015.

Dissertasiyanın mövzusu üzrə 10 elmi məqalə nəşr edilmişdir.

**Dissertasiya işinin quruluşu.** Dissertasiya işinin həcmi 163 səhifə olmaqla, Girişdən, 4 fəsildən, əldə edilmiş nəticə və təkliflərdən, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin əyaniliyini artırmaq üçün 67 cədvəl, 17 xəritə-sxem, 9 şəkil verilmişdir. Ədəbiyyat siyahısında 121 mənbə vardır.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır, tədqiqat işinin obyekti, predmeti, məqsəd və vəzifələri müəyyən edilir, dissertasiyanın nəzəri və metodoloji əsasları, elmi yenilikləri və praktiki əhəmiyyəti göstərilir.

Dissertasiyanın birinci fəsli “**Ölkənin təsərrüfatında ostanın yeri və infrastruktur sahələrinin öyrənilməsinin nəzəri-metodiki əsaslarının**” tədqiqinə həsr edilmişdir. Burada Zəncan ostanının inzibati-ərazi bölgüsü və ölkənin təsərrüfatında rolu təhlil edilir. Zəncan ostanı İranın şimal-qərbində, əlverişli yollar üzərində yerləşir, onun sahəsi 22164 km$^2$, əhalisinin sayı 1036,8 min nəfərdir. İnzibati-ərazi cəhətdən ostan Zəncan, Əbhər, Tarum, Xudabəndə, Xürrəmdərə, İcrud və Mahneşan nahiyələrinə bölünür. Zəncan ostanında 21 şəhər, 1210 kiçik kənd məntəqəsi vardır, 978 kənddə yaşayış vardır, 232 kəndin əhalisi boşalmışdır. İnzibati-ərazi bölgüsündə ayrılan nahiyələrin sərhədləri əksər halda Qızılüzən çayı və onun qolları boyu keçir. 1994-cü ildə aparılmış inzibati-ərazi dəyişikliyinə əsasən Qəzvin Zəncan ostanından ayrılmış və müstəqil ostana çevrilmişdir.

Dissertasiyada hər bir nahiyənin yerləşdiyi ərazilər, sərhədləri və təbii şəraiti haqqında məlumatlar verilir. Ostanın əhalisi haqqında məlumatlar aşağıdakı cədvəldə öz əksini tapır (Cədvəl 1 və Şəkil 1).

Cədvəl 1

Zəncan ostanında nahiyələr üzrə əhalinin paylanması

| Nahiyələrin adı | Əhalinin sayı, nəfər | | | Əhalinin payı, faiz | | Əhalinin sıxlığı, nəf/km$^2$ | Sahəsi km$^2$ |
|---|---|---|---|---|---|---|---|
| | Ümumi | Şəhər | Kənd | Şəhər | Kənd | | |
| Zəncan | 490461 | 383713 | 106748 | 78,24 | 21,76 | 72,52 | 6763 |
| Xudabəndə | 186170 | 43124 | 143046 | 23,16 | 76,84 | 36,14 | 5151 |
| Əbhər | 164357 | 103055 | 61302 | 62,70 | 37,30 | 54,91 | 2993 |
| Mahneşan | 46128 | 8234 | 37894 | 17,85 | 82,15 | 16,55 | 2786 |
| Tarum | 48379 | 7132 | 41247 | 14,74 | 85,26 | 21,64 | 2235 |
| İcrud | 38333 | 3621 | 34712 | 9,44 | 90,56 | 20,95 | 1829 |
| Xürrəmdərə | 62998 | 49874 | 13124 | 79,17 | 20,83 | 154,78 | 407 |
| Ostan | 1036826 | 598753 | 438073 | 59,25 | 40,75 | 53,92 | 22164 |

**Mənbə**: Zəncan ostanı Planlaşdırma İdarəsinin hesabatı, 2015.

Zəncan ostanı İranın ərazisinin 1,36%-ni təşkil edir, ölkə əhalisnin 1,37%-i burada məskunlaşıb. Ölkənin təsərrüfat sahələrinin fəaliyyətini əks etdirən göstəricilərdə ostan daha kiçik paya malikdir. 2014-cü ildə ostan ölkə üzrə ÜDM-in 0,88%-ni vermişdir. Neft gəlirləri nəzərə alınmaqla, ölkənin ÜDM-nin istehsalında Zəncan ostanlar arasında 19-cu, neft gəlirləri nəzərə alınmadan 16-cı yeri tutur.

Zəncan ostanında ölkənin kənd təsərrüfatı məhsullarının 2,1%-i istehsal olunur. Emal və dağ-mədən sənayesində əldə olunan əlavə dəyər ölkədə alınan göstəricinin orta hesabla 0,56%-ni təşkil edir. Ostanda ən az




Şəkil 1. Zəncan ostanının inzibati-ərazi bölgüsü

Birinci fəslin sonunda dissertasiyanın tədqiqat obyekti olan infrastruktur sahələrinin təsərrüfatın inkişafında rolu və ərazi təşkili prinsiplərinin təhlili aparılır. İstehsal sahələrinə və əhaliyə xidmət göstərən infrastruktur obyektləri regionların inkişafına böyük təsir göstərir. Onun tərkibinə daxil olan sahələr təsərrüfatın inkişafını təmin edir, təbii ehtiyatlar və təbii-coğrafi şəraitdən istifadə edilməsinə imkan verir, yaşayış yerlərində əhaliyə xidmət göstərilməsinin səviyyəsini müəyyən edir. Bu sahəyə yönəldilən investisiyaların ümumi miqdarı onun fəaliyyətini təmin etməli, əhaliyə müxtəlif istiqamətli zəruri xidmətlərin göstərilməsini və həyat şəraitinin yüksəldilməsini təmin etməlidir. Bu ümumi vəsaitlərin məcmusu istehsal və xidmət sahələrinin, nəqliyyatın inkişafı, ölkənin təhlükəsizliyinin təmin edilməsi imkanlarını genişləndirir. Əhaliyə xidmət göstərilməsi və rifahının yüksəldilməsi iqtisadi inkişafa şərait yaradır.

İstehsal infrastrukturu şəbəkəsinə magistral yollar, körpülər, dəmir yolları, istehsal edilən məhsulların daşınması üçün quru yolları, tranzit yolları, eyni zamanda kommunikasiya şəbəkəsi, su xətləri şəbəkəsi və su anbarları təminatı, su bəndləri, dənizlərdə istifadə edilən tranzit yolları və limanlar daxildir. Bu sahə, həmçinin, elektrik, təbii qaz və enerji istehsalı mərkəzlərini və təminatı xətlərini əhatə edir.

İnfrastruktur şəbəkəsi həmçinin, birbaşa bir vasitə kimi ərazidə istehsalın yerləşməsini müəyyən edir, işçi qüvvəsinin və yatırılan sərmayələrin səmərəliliyini yüksəldir.

Dissertasiyanın **ikinci fəsli "Ostanda təsərrüfatın inkişafının təbii-coğrafi şəraiti və iqtisadi-coğrafi bazasının**" əhəmiyyətinə həsr edilmişdir. Zəncan ostanında relyef, geoloji-geomorfoloji strukturlar, iqlim şəraiti, aqroiqlim ehtiyatları, hidroqrafik şəbəkə, torpaq-bitki örtüyü təsərrüfat sahələrinin inkişafı, infrastruktur obyektləri şəbəkəsinin fəaliyyəti və əhalinin məskunlaşması üçün əlverişlidir.

Zəncan ostanı İranın dağlıq hissəsində yerləşir. Elburs dağları ostanın şimal sərhədlərinə paralel yerləşir. Onun ərazisi dəniz səviyyəsindən orta hesabla 1663 m yüksəklikdə yerləşir. Ostanın ən hündür nöqtəsi Bilqeys dağıdır (3332 m). Zəncan dağları Əbhər və Zəncan çayları vasitəsilə iki fərqli olan hissələrə, şimal-şərq və cənub-qərb hissələrinə bölünmüşdür. Zəncan çayı Qızılüzənin bir qolu hesab edilir və əsas çayla birləşmək üçün şimal-qərb istiqamətində axır. Əbhər çayı cənub-şərq istiqamətə yönəlir. Bu iki çayın bölünən xətti Sultaniyə məntəqəsinin şərqindədir. Qızılüzən çayı ətrafında Zəncan ovalığı Sultaniyyəyə doğru tədricən yüksəlir. Bölünən xəttin digər tərəfində tədricən yüksəklik azalmışdır. Bu ərazilər Əbhər ovalığı adlanır.

Ərazilərin mənimsənilməsində relyefin meyilliyi mütləq olaraq nəzərə alınır. Ona görə ostanda ayrı-ayrı ərazilərin meyilliyi hesablanmışdır. Aparılan təhlillər göstərir ki, Zəncan ostanının ümumi ərazisinin 52,6%-nin meyilliyi 5°-dən azdır. Bu ərazinin əsas hissəsi Zəncan, Sultaniyə, Şəhrin, Qidar, Zərrinabad düzənliklərində və çayların hövzələrində yerləşir. Digər tərəfdən ostanda 72,6 min ha sahəyə malik olan ərazinin meyilliyi 65°-dən çoxdur. Dissertasiyada həmçinin ostanın yerləşdiyi geomorfoloji strukturlar təhlil edilir, göstərilir ki, ostan geomorfoloji strukturlar baxımından şimal, cənub-qərb və şərq istiqamətlərdə uzanan iki paralel sıra dağlardan və dağarası düzənlik ərazilərdən ibarətdir.

Zəncan ostanında iqlimin formalaşmasına və onun il ərzində dəyişməsinə oroqrafik vahidlər, ərazinin dəniz səviyyəsindən olan hündürlüyü və daxil olan hava kütlələri təsir göstərir. Aralıq dənizi və Atlantik okeanından rütubətlə zəngin hava kütlələri sentyabrdan may ayına qədər əraziyə yağıntı gətirir. Şimaldan isə soyuq Arktika hava kütlələri ostana daxil olur, ilin soyuq dövründə yağıntılara və temperaturun aşağı düşməsinə səbəb olur. Zəncan ostanında havanın illik orta temperaturu 11,8°C, mütləq maksimum temperatur 40°C, mütləq minimum isə -28,6°C təşkil edir. Orta illik yağıntılar 200-400 mm arasında dəyişir. Dissertasiyada ostan daxilində iqlim rayonlaşması aparılır.

Zəncan ostanının daxili çayları Xəzər dənizi hövzəsinə daxildir. Onun ümumi sahəsinin 18862 km$^2$-i Xəzər dənizi və Qızılüzən çayının hövzəsində yerləşir. Quraq dövrlərdə çaylar az sulu olur, bəzi çaylar hətta quruyur. Əksinə, qarın əriməsi və yağıntılar dövrü olan yazda çaylar bolsulu olur.

**Qızılüzən** ostanın ən böyük çayıdır, uzunluğu təxminən 550 km və sutoplayıcı hövzəsinin sahəsi 49,4 min km$^2$, illik axımı Gilvan stansiyasında 3532 milyon m$^3$-dir. Çay Kürdüstan əyalətində yerləşən Çehelçeşmə dağından başlanır, Həmədan, Ərdəbil, Qərbi və Şərqi Azərbaycan ostanlarından gələn çaylarla birləşir. Sonra Məncil su bəndində Şahrud çayı ilə birləşir və Səfidrud adı ilə Xəzər dənizinə tökülür.

**Zəncan çayı** mənbəyini Sultaniyə dağlarının Çəmən adlı yerindən götürür, təxminən 125 km uzunluğu vardır. Zəncan çayı Qızılüzənin qollarından biri hesab edilir. Sutoplayıcı hövzəsinin sahəsi 4450 km$^2$-dir.

**Əbhər çayının** qollarının bir hissəsi daimi axarlıdır, digər qismində sular müvəqqəti axara malikdir. Dissertasiyada onların hidroloji xüsusiyyətləri təhlil olunur, təsərrüfat əhəmiyyəti verilir. Çaylar yaşayış məntəqələrində əhalinin və təsərrüfatın şirin su ilə təminatının əsas mənbəyidir. Çaylar üzərində su anbarları yaradılmışdır, hövzəsində suvarma şəbəkəsi qurulmuşdur.

Dissertasiyada ostan **əhalisinin** demoqrafik göstəriciləri geniş təhlil olunur. Bura əhalinin sayı, təbii artımı, miqrasiya, cins-yaş tərkibi, şəhərlərin demoqrafik inkişafı, əhalinin məşğulluğu və s. aiddir. 2015-ci ilin məlumatlarına görə ostanda əhalinin 59,25%-i şəhərlərdə, 40,75%-i kəndlərdə yaşayır. Ostanda şəhər əhalisinin sayı sürətlə artır və urbanizasiya səviyyəsi yüksəlir. Onun kəmiyyəti ölkə üzrə orta göstəricilərdən yüksəkdir. Ostanın nahiyələri üzrə əhalinin sıxlığı qeyri-bərabər olmaqla, onun orta kəmiyyəti 54 nəfər/km$^2$-dir (Cədvəl 1).

Ostanda 2006-cı ildə hər 1000 nəfərə görə doğum əmsalı 20,2, ölüm əmsalı 5,4, təbii artım əmsalı 14,8 nəfər olmuşdur. Ayrı-ayrı nahiyələr arasında onun göstəriciləri arasında kəskin fərqlər yoxdur. Mahneşan və Xudabəndə nahiyələrində kənd əhalisinin üstünlük təşkil etməsi ilə əlaqədar doğum, ölüm və təbii artım əmsalları nisbətən yüksəkdir. Xudabəndə nahiyəsində əhalinin 76,84%-i kəndlərdə yaşayır.

Zəncan ostanı İranda intensiv miqrasiya regionlarından biridir. İş yerləri ilə təminatda olan problemlər, şəhərlərin iqtisadi bazasının zəifliyi miqrasiyaların intensiv getməsinə səbəb olur. 2006-cı ildə ostandan gedən miqrantların 59,8%-i Tehran, 10,5%-i Qəzvin, 6,5%-i Qum, 5,2%-i Gilan, 4,3%-i Şərqi Azərbaycan, 2,3%-i Qərbi Azərbaycan, 1,2%-i Kürdüstan ostanına köçmüşlər. Dissertasiyada şəhər məntəqələri öyrənilmiş, məşğulluq quruluşunun təhlili aparılmışdır. Ostanda məşğul əhalinin 36%-i xidmət sahələrində, 33,3%-i sənayedə, 30,7%-i kənd təsərrüfatında çalışır.

2007-ci ildə Zəncan ostanı ölkədə **sənaye** sahələri üzrə əlavə dəyərin təxminən 1,0%-ni vermişdir. Bu da sənaye potensialına görə ölkədə ostanlar arasında 14-cü yer deməkdir. Ostan sənayenin inkişafının təbii-iqtisadi bazası olan faydalı qazıntılarla zəngindir. Sənaye əhəmiyyətli qurğuşun-sink yataqları Ənquran rayonunda, kalium İlcaqda yerləşir. Ostanda həmçinin dəmir ($Fe_2O_3$), bəzək və üzlük daşları, qranit, silisium (xalis kvartasit) və perlit, alunit yataqları da mövcuddur. Burada Yaxın Şərq regionunda olan ən böyük qurğuşun-sink yatağı əsasında Saflaşdırma zavodu fəaliyyət göstərir. Ölkənin qurğuşuna olan tələbatının 80%-i, sinkə olan tələbatının 70%-i ostanda fəaliyyət göstərən metallurgiya zavodlarında istehsal edilir. Ostanda müəyyən edilən mədənlərin ümumi sayı 173-dən çoxdur. Bunlardan 128-i istismar edilir. Onlar əsasən Zəncan, Əbhər və Mahneşan nahiyələrində yerləşir.

Ölkədə mövcud olan 136 sənaye fəaliyyəti növündən 77-si Zəncan ostanında mövcuddur. Sənaye sahələrinin ərazi təşkilində magistral yollar və digər infrastruktur obyektləri əhəmiyyətli rol oynayır. Ona görə iri sənaye müəssisələri Qəzvin-Zəncan magistral yoluna yaxın, Zəncan, Əbhər və Xürrəmdərə şəhərləri ətrafında cəmlənir (Şəkil 2). 500 nəfərdən çox

işçisi olan müəssisələrin əksəriyyəti burada yerləşir. Zəncan nahiyəsində sənayenin 18 sahəsi üzrə (metallurgiya, maşınqayırma, kimya, tikinti materialları, yüngül və yeyinti), Əbhər nahiyəsində 12 sahəsi üzrə, Xürrəmdərə nahiyəsində 3 sahəsi üzrə müəssisələr mövcuddur. Xudabəndə, İcrud, Mahneşanda sənaye bir neçə sahə ilə təmsil olunur.

Dissertasiyada ostanda mövcud olan sənaye obyektlərinin yerləşməsi, onlarda işçilərin sayı, istehsal edilən məhsulların çeşidi ətraflı təhlil olunur.

Təsərrüfatın ikinci mühüm sahəsi olan **kənd təsərrüfatının** inkişafı üçün Zəncan ostanında əlverişli təbii-iqlim şəraiti və məhsuldar torpaqlar vardır. Ölkədə becərilən əkin sahələrinin 3,8%-i ostanın payına düşür. Ölkə ərazisinin 8,5%-i əkin dövriyyəsinə cəlb edilmişdirsə, Zəncan ostanında bu göstərici 24,1%-dir. Ostanda əkilən sahələrin çox hissəsini taxıl, yem bitkiləri və paxlalılar tutur. Onların çoxu dəmyə şəraitində becərilir. Çoxillik əkinlərdə üzüm, müxtəlif meyvələr (alma, ərik, şaftalı, armud, badam, heyva, qoz) üstünlük təşkil edir. Heyvandarlıq da kənd təsərrüfatında inkişaf edən sahələrə aiddir, onun tərkibində qoyunçuluq əsas yer tutur.

Dissertasiyanın üçüncü fəslində əsas tədqiqat obyekti olan "**İnfrastruktur sahələrinin müasir vəziyyəti və ərazi təşkili problemləri**" tədqiq olunur. Bu bölmədə infrastruktura daxil olan elektrik enerjisi, neft-qaz kəmərləri şəbəkəsi, nəqliyyat-kommunikasiya sistemi, su təminatı, anbar təsərrüfatı, təhsil, mədəni-məişət xidməti, səhiyyə müəssisələrinin, turizm təsərrüfatının müasir vəziyyəti, ərazi təşkilində olan problemlər, onların aradan qaldırılması istiqamətləri tədqiq olunur.

Zəncan ostanında **xidmət sektoru** böyük potensiala malikdir və sürətlə inkişaf edir. 2000-2014-cü illərdə bu sahədə göstərilən xidmətlərin dəyəri 2,5 dəfə artmış, ümumi əlavə dəyərin 37%-ni təşkil etmişdir.

Dissertasiyada ostan daxilində **elektrik enerjisi** ilə təminatın təşkili tarixi, müasir vəziyyəti, EVX-nin əsas istiqamətləri göstərilir. Hazırda ostanda ümumi gücü 500 MVt olan 4 İES işləyir, bütün yaşayış məntəqələri elektrik enerjisi ilə etibarlı təmin olunur (Şəkil 2).

Zəncan ostanında 1977-ci ildə Tehran-Təbriz **neft kəmərinin** çəkilməsi onun məhsullarından istifadə etməsinə imkanı yaratdı, mövcud olan kəmərlər ostanın bu məhsullara olan tələbatını tam ödəyir. 338 km uzunluğu olan 3 qaz kəməri şəhər və kəndlərin təbii qaza olan tələbatını ödəyir. Bundan başqa, 130 km-dən çox uzunluğa malik olan Zəncan-Hələb və Mahneşan-Dəndi qaz xətləri 2007-2008-ci illərdə istifadəyə verilmişdir.




Şəkil 2. Zəncan ostanında nəqliyyat-kommunikasiya şəbəkəsi

**Nəqliyyat** ostanın mühüm infrastruktur sahələrinə aiddir. Zəncanın əlverişli mövqedə yerləşməsi ilə əlaqədar burada magistral yolların sıxlığı yüksəkdir. Ostanda avtomobil nəqliyyatı və boru kəməri sektorunun əlavə dəyərin formalaşmasında payı 9% təşkil etmişdir (2010). Dissertasiyada Zəncan ostanında istifadə edilən yolların əsas istiqamətləri, onların üç kateqoriyaya bölünməsi, yerli əhəmiyyətli yolların keyfiyyəti və strukturu təhlil edilir (Cədvəl 2).

Cədvəl 2

İran İR və Zəncan ostanında yolların sıxlığı (2014)

| Yolun növü | | Magistral | 4 zolaqlı əsas yollar | Əsas yolun uzunluğu | Orta geniş yollar | Cəmi |
|---|---|---|---|---|---|---|
| Ostan | Uzunluğu, km | 211 | 335 | 821 | 3519 | 4886 |
| | Sıxlığı, km/km$^2$ | 0,01 | 0,02 | 0,04 | 0,02 | 0,22 |
| Ölkə | Uzunluğu, min km | 123,6 | 5160,6 | 21996,2 | 44431,1 | 71711,5 |
| | Sıxlığı, km/km$^2$ | 0,74 | 3,11 | 13,26 | 26,79 | 43,23 |
| Bütün ölkəyə nisbəti, faiz | | 0,02 | 0,01 | 0,004 | 0,01 | 0,01 |
| Ölkədə yeri | | 2 | 27 | 25 | 20 | 23 |

**Mənbə**: Zəncan ostanı Nəqliyyat Baş İdarəsinin statistika hesabatı.

Göstərilir ki, yeni yolların çəkilməsi, onlarda təhlükəsizliyin artırılması, yerli əhəmiyyətli yolların şəbəkəsinin genişləndirilməsi vacibdir. Zəncan şəhər ətrafında ostanda yeganə olan aeroport fəaliyyət göstərir.

Quraq iqlimə malik olan İranda, o cümlədən Zəncan ostanında **şirin su ilə təminat** ciddi problem kimi qarşıda durur. Təsərrüfat sahələrində və

insanların ehtiyaclarının ödənilməsi üçün suya olan tələbat daim artır. Ostanda çay və yeraltı su ehtiyatları əsas su mənbələridir. Dissertasiyada regiondakı çay sularının istifadə edilməsi imkanları və bu suların hidrokimyəvi xüsusiyyətləri öyrənilmişdir.

Ostanda müxtəlif təyinatlı məhsullar, yarımfabrikatlar və xammalların saxlanılması üçün istifadə edilən, ümumi tutumu 338 min tona çatan 62 **anbar** vardır. Onların 13-ü Zəncan nahiyəsində yerləşir. Sonrakı sırada yerləşən Əbhər nahiyəsində anbarların 30,7%-i cəmlənmışdir. Ostanda soyutma kameralarının şəbəkəsi hələlik seyrəkdir. Burada taxıl anbarları və saxlama kameralarının seyrək olması ticarət infrastrukturunun zəif olmasını göstərir. Regionda taxıl anbarlarının sayı da hələlik azdır. Ona görə yenilərinin tikilməsinə ehtiyac vardır (Şəkil 3).




Şəkil 3. Zəncan ostanında anbarların nahiyələr üzrə paylanması

**Ali təhsil mərkəzləri** ostanda geniş şəbəkəyə malikdir. Burada ali təhsil, texniki peşə və təlim mərkəzləri 4 qrupa bölünür. Bura Dövlət Universiteti, Azad Universitet, Pəyamnur Universiteti və özəl ali təhsil mərkəzləri aiddir. Ali təhsil mərkəzləri arasında əlaqələr zəifdir. Ona görə oxşar ixtisaslar üzrə kadrlar hazırlanır, bir çox hallarda mövcud tələbat nəzərə alınmır. Ostanın bütün dövlət ali təhsil mərkəzləri Zəncan şəhərində yerləşir. Zəncan, Əbhər və Qidarda Azad İslam Universiteti vardır. 2011-ci ildə ostanda 11 Universitet fəaliyyət göstərir.

**Turizm təsərrüfatı** xidmət sahələri arasında mühüm yer tutur. Ostanın inzibati mərkəzi olan Zəncan şəhəri qəbul edilən turistlərin sayına görə əsas mərkəz hesab edilir. Lakin turist qəbulu obyektlərinin sayına görə xeyli problemlər vardır. Ostanda 16 mehmanxana və 7 hotel fəaliyyət göstərir. Turizm obyektlərində qəbul yerləri müasir tələblərə cavab vermir, xidmətlərin səviyyəsi aşağıdır.

Ölkədə fəaliyyət göstərən hotellərin 1,02%-i Zəncanda yerləşir, onların qəbul etdiyi daxili qonaqlara xidmətlərin 3%-i ostanın payına düşür. Regionda turizm informasiya mərkəzləri şəbəkəsi zəifdir. Turizm şirkətlərinin 67%-i Zəncan şəhərində yerləşir, Xudabəndə və Xürrəmdərə nahiyələrinin hər birində şirkətlərin 13%-i fəaliyyət göstərir. Mehmanxanalarda göstərilən xidmətlərin müqabilində qiymətlər çox yüksəkdir. Ona görə daxili tutizmin inkişafında ciddi problemlər vardır. Bu sahəyə böyük miqdarda sərmayə qoyulmur.

Dissertasiyada turizm mərkəzlərinin fəaliyyət xüsusiyyətləri təhlil olunur, keyfiyyət nişanlarına görə bölgüsü araşdırılır. Xarici turistlərin qəbulunu yüksəltmək üçün göstərilən xidmətlərin müasir tələblər səviyyəsinə qaldırılması, yeni mərkəzlərin qurulması zəruriliyi qeyd edilir.

**Mədəni xidmət** mərkəzlərinə aid olan mədəniyyət evləri, xeyriyyə cəmiyyətləri, mədəni dərnəklər ostanda qeyri-bərabər paylanmışdır. Onların 75%-i Zəncan şəhərində yerləşir. Kənd məntəqələrində onların göstərdiyi xidmətlər hələlik aşağı səviyyədədir (Şəkil 4).




Şəkil 4. Zəncan nahiyəsində mədəniyyət obyektlərinin sayı

**Səhiyyə** əhaliyə göstərilən xidmətlər arasında əhəmiyyətinə görə fərqlənir. Bu sahəyə aid olan xəstəxanalar ostanda qeyri-bərabər yerləşsə də, onların şəbəkəsinin genişləndirilməsi üçün davamlı olaraq tədbirlər görülür, tibbi xidmətlərə cəlb edilən insanların sayı artır. Yerlərdə xəstəxanalar, poliklinikalar tikilir, onların maddi-texniki bazasının yüksəldilməsi üçün maliyyə vəsaitləri ayrılır, hətta kəndlərdə də son vaxtlarda səhiyyə obyektlərinin yaradılması üçün xeyli işlər görülmüşdür.




Şəkil 5. Zəncan ostanında səhiyyə obyektlərinin yerləşməsi

Zəncan ostanında 11 mərkəzi xəstəxana, 40 ambulator-müalicə mərkəzi və poliklinika fəaliyyət göstərir (Şəkil 5). Yalnız İcrud nahiyəsində mərkəzi xəstəxana yoxdur. Zəncan nahiyəsində 5, Əbhərdə 2 xəstəxana işləyir. Ostanda 412 kənd ambulator-poliklinika müəssisəsi vardır. Onlar 915 kəndin əhalisini əhatə edir, digər məntəqələrin əhalisinə səyyar formada tibbi xidmətlər göstərilir.

Dissertasiyanın **dördüncü fəslində Zəncan ostanında infrastruktur sahələrinin inkişaf perspektivləri** müəyyən edilir, bu sahədə həyata keçirilməsi zəruri hesab edilən kompleks tədbirlər işlənib hazırlanmışdır. Bu fəsildə ilk növbədə SWOT riyazi modelindən istifadə edilməsi əsasında ostan daxilində inkişaf modelinin hazırlanması imkanları təhlil edilir. Bu modeldən istifadə edilməsi əsasında təsərrüfatın inkişafının üstün cəhətləri, zəif nöqtələri, potensial imkanları və məhdudlaşdırıcı amilləri öyrənilir, onların əsas göstəriciləri təhlil edilir, nəzəri əsasları, tətbiqinin əhəmiyyəti göstərilir. Burada müxtəlif təsərrüfat sahələri üzrə zəif və üstün cəhətlər, məhdudlaşdırıcı amillər, onların təsir əmsalları müəyyən edilir.

Zəncan ostanında turizm, xidmət və ticarət sektorlarına aid araşdırmalarda göstərilir ki, bu sahələrin üstün cəhətləri təbii mənzərələr, ətraf mühitin ekzotizmi və geoturizmin inkişafı üçün imkanların əmsalı 3,3400, Zəncan şəhərində ticarətin müxtəlif sahələrində fəaliyyətin əmsalı 3,3000, ölkə və regional miqyasda güclü xidmət sahələri, infrastruktur və bazarlara ostanın yaxın olması, məhsulların istehsal əmsalı 3,2600-dür.

Dissertasiyada ostanda xidmət və ticarətin üstün cəhətləri, müxtəlif göstəricilər əsasında potensial imkanlar, məhdudlaşdırıcı amillər, zəif cəhətləri üzrə əmsallar müəyyən edilir. Bunun üçün 9 göstəricidən istifadə edilir. Nəticə olaraq göstərilir ki, ostanda sosial, istehsal və məişətə aid infrastrukturun inkişaf imkanlarının qeyri-mütənasib paylanması, əsas meylin daxili ticarətə yönəldilməsi, xarici ticarətin inkişafına laqeyd münasibət, ostanda texniki və istehsala xidmət edən obyektlərin artması əvəzinə, pərakəndə satış obyektlərinin qeyri-müntəzəm olaraq artması göstəriciləri orta həddən aşağı dəyərləndirilmişdir. Bu amillər ostanın inkişafında məhdudlaşdırici amillərə aid edilir. Bu istiqamətdə təhlillər ətraf mühit və təbii-coğrafi şəraitin imkanlarından istifadə edilməsi üçün də aparılmışdır. Təhlillər göstərir ki, 9 göstərici arasından su və torpaq sahələrinə kifayət qədər investisiyaların qoyulmaması, mineral mənbələr və qum-çınqıl mənbələrinin geniş miqyasda istismar edilməsi, nizamsız ovlamalar, ostanın geoloji və seysmik xüsusiyyətləri, səthi su mənbələrinin xeyli miqdarda çirklənməsi ətraf mühit və təbii-coğrafi şəraitin məhdudlaşdırıcı amilləri kimi qəbul edilmiş və orta həddən yuxarı hesab edilmişdir.

Xidmət və ticarət sahələrində maneələrin təhlili göstərir ki, kənd təsərrüfatı məhsullarının emalı sənayesinin kifayət qədər olmaması, ostanda turizm fəaliyyətinin inkişafı üçün mədəni irsin qorunması və bərpasında düzgün iqtisadi baxışın hakim olmadığı vəziyyət Zəncan ostanında xidmət və ticarət sektorunun inkişafında ən mühüm maneələr kimi müəyyən edilmişdir. Bu istiqamətdə təhlillər kənd təsərrüfatı, emal və dağ-mədən sənayesi, ətraf mühit və təbii-coğrafi şəraitin istifadə edilməsi sahələrində də aparılmışdır.

Dissertasiyanın sonunda Zəncan ostanında ayrılan nahiyələr üzrə həyata keçirilməsi vacib olan tədbirlər verilmişdir. Ölkənin regionları arasında olan sosial-iqtisadi inkişaf səviyyəsindəki fərqlərin azaldılması, demoqrafik potensialın paytaxt, inzibati mərkəzlər və periferiyalar arasında bərabər paylanmasına nail olmaq üçün daha fəal regional siyasət aparılması, burada iş yerləri ilə təminat, əhaliyə sosial-mədəni xidmət gəstərilməsi, infrastruktur sahələrinin müasir tələblər səviyyəsində qurulması zəruridir. Bu halda əhalinin və təsərrüfatın bir neçə mərkəzdə toplanmasının qarşısı alınır, yerlərdən əhalinin miqrasiyası azalır. Eyni zamanda regionlarda olan təbii şərait və təbii ehtiyatlardan istifadə edilməsi sahəsində addımlar atılır.

Hər bir nahiyədə təbii-coğrafi şərait, tarixi-mədəni turizm obyektləri, təbii ehtiyatlar, əlverişli İCM və nəqliyyat-coğrafi mövqe, demoqrafik potensial, ixtisaslı kadrlar, kənd təsərrüfatı məhsullarının emalının təşkili əsasında şəhərlərin iqtisadi bazasının yenidən qurulması imkanlarından

istifadə edilməsi vacib vəzifələrdir. Bu tədbirlər sistemində infrastruktur obyektləri şəbəkəsinin müasir tələblər səviyyəsində qurulması da əhəmiyyətli yer tutur.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

İran İR-in Zəncan ostanında infrastruktur sahələrinin müasir vəziyyəti, onların fəaliyyətinin iqtisadi-coğrafi problemləri və inkişaf perspektivlərinin təhlili əsasında aşağıdakı nəticə və təklifləri söyləmək olar:

1. Dissertasiyada ilk dəfə olaraq Zəncan ostanında infrastruktur sahələrinin ərazi təşkili problemləri öyrənilmiş, onların inkişaf səviyyəsinin digər ostanlarla müqayisəsi aparılmışdır. Göstərilən xidmətlərin yüksəldilməsi üçün maliyyə vəsaitlərinin ayrılması, Dövlət Proqramının qəbul və yerinə yetirilməsi tələb olunur. İnfrastruktur obyektləri əhalinin həyat fəaliyyəti və təsərrüfat sahələrinin davamlı inkişafının təmin edilməsi üçün xüsusi əhəmiyyət kəsb edir. Elektroenergetika, nəqliyyat-kommunikasiya şəbəkəsi, işıq, istilik, su təminatı regionların inkişafı üçün sosial-iqtisadi baza rolunu oynayır. Sosial-mədəni xidmət, ticarət, pullu xidmətlər göstərilməsi, səhiyyə və təhsilin inkişafı əhalinin gündəlik və dövri tələbatını ödəyir. Əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması vacib vəzifə kimi qarşıda durur.

2. Ostanda əhalinin məskunlaşması, təsərrüfatın inkişafı, onun çoxsahəli strukturunun formalaşması üçün olan əlverişli təbii-iqtisadi potensial hələlik tam olaraq istifadə edilmir. Ona görə Zəncan ostanı ölkənin ÜDM-nin 0,88%-ni, o cümlədən kənd təsərrüfatı məhsullarının 2,1%-ni verir. Yaranmış vəziyyətdə ostan daxilində ayrılan nahiyələrin əksəriyyətində urbanizasiya səviyyəsi aşağıdır, şəhərlərdə əhalinin sayı zəif templə artır, əhalinin iş yerləri ilə təminatında, problemlər vardır, miqrasiyalar intensiv gedir. Problemlərin həll edilməsi üçün infrastruktura aid olan yollar, kommunikasiya sistemi, mədəni-məişət xidməti, təhsil, elm, səhiyyə obyektləri, mənzil-kommunal təsərrüfatının müasir tələblərə uyğun qurulması zəruridir.

3. Zəncan ostanında əhalinin, yaşayış məntəqələrinin və təsərrüfat obyektlərinin ərazi təşkili və nahiyələr üzrə paylanmasında nəqliyyat-kommunikasiya şəbəkəsi mühüm təsirə malikdir. Ostanın əsas təsərrüfat sahələri onun mərkəzindən keçən bu xətlər boyu yerləşir. Əhali və təsərrüfat obyektləri nahiyələr üzrə qeyri-bərabər paylanır. Ona görə nahiyələrin sosial-iqtisadi və demoqrafik inkişafının təmin edilməsi üçün müasir infrastruktur obyektləri və xətləri şəbəkəsinin təşkili, onların əsasında maddi istehsal sahələrinin qurulması zəruridir.

4. Ostanın şəhərləri ilə bərabər, kəndlər də işıq və təbii qaz ilə təmin olunur, bu məntəqələrdə təhsil müəssisələri ilə bərabər, səhiyyə xidməti mərkəzləri yaradılır. Kəndlərdə sosial-mədəni xidmətlərin təşkili əhalinin həyat səviyyəsinin yaxşılaşmasını, yeni iş yerlərinin yaradılmasını, kəndlərdən əhalinin miqrasiyasının azalmasını müəyyən edir. Tədqiqat nəticəsində Zəncan ostanında təhsil, mədəniyyət və səhiyyə obyektləri, onların nahiyələr üzrə paylanması, fəaliyyət istiqamətləri, xidmət gücü öyrənilmişdir. Regionda bu qrupa daxil olan obyektlərin fəaliyyətinin təkmilləşdirilməsi vacib vəzifələrdir.

5. Ostanda elektrik enerjisi ilə təminat yerli istehsal hesabına ödənilir. Zəncan şəhəri ətrafında yaradılan 4 İES şəhərlərlə yanaşı, kəndlərin də elektrik enerjisi ilə təminatı sisteminə qoşulmasına imkan vermişdir. Lakin regionun sənaye potensialı zəif olduğuna görə tələbat aşağı səviyyədədir. Gələcəkdə yeni təsərrüfat obyektlərinin yaradılması prosesində elektrik enerjisi ilə fasiləsiz təminat üçün yeni enerji bloklarının yaradılması zəruridir.

6. Ostanda turizm təsərrüfatının inkişafı üçün zəruri olan infrastruktur obyektləri azdır və müasir tələblərə cavab vermir. Mövcud olan mehmanxanalar və digər turist qəbulu yerlərində göstərilən xidmətlər aşağı səviyyədədir, onların maddi-texniki təminatı zəifdir. Turizm mərkəzlərinin reklamı, turistləri cəlb istiqamətində işlər aşağı səviyyədədir. Onlar əsasən ostanın inzibati mərkəzində yerləşir. Bu mərkəzlərin xarici turistləri qəbul etməsi və onlara yüksək səviyyədə xidmət göstərilməsi üçün yenidən qurulmalı və beynəlxalq standartlara cavab verməlidir.

7. Zəncan ostanında SWOT modelindən istifadə edilməklə ayrı-ayrı təsərrüfat, o cümlədən infrastruktur sahələrinin inkişaf imkanları öyrənilmişdir. Burada 9 göstəricidən istifadə etməklə xidmət və ticarət sektorlarının üstünlükləri, zəif cəhətləri, potensial imkanları və inkişafına mane olan amillər hesablanmışdır. Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, infrastrukturun potensial imkanları qeyri-bərabər paylanır, onların inkişafı bu sahəyə yönəldilən maliyyə vəsaitlərinin həcmindən asılıdır.

**Dissertasiyanın mövzusu üzrə çap edilmiş elmi əsərlər:**

1. Cəmşidi M.M. İran İslam Respublikasının Zəncan ostanında turizmin inkişaf potensialı // Azərbaycan CC-nin əsərləri. XIV cild. Bakı, 2009, s. 285-289.

2. Cəmşidi M.M. İran İslam Respublikasının Zəncan ostanında təbii-coğrafi turizm potensiali // “Qloballaşma və coğrafiya” mövzusunda beynəlxalq elmi praktiki konfrans. BDU. Bakı, 2012, s. 650-655.

3. Cəmşidi M.M. İran İslam Respublikasının Zəncan ostanında müalicə əhəmiyyətli su mənbələri və turizmin inkişafında onların rolu. // Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri. XVII cild. Bakı, 2012, s. 425-430.

4. Cəmşidi M.M. İran İslam Respublikasının Zəncan ostanında geoloji-geomorfoloji obyektlər və onların turizmin inkişafinda istifadə edilməsi // Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri. XVIII cild. Bakı, 2013, s. 392-396.

5. Cəmşidi M.M. İran İslam Respublikasının Zəncan ostanında sosial-iqtisadi inkişafin prioritet istiqamətləri // "Coğrafiya: nəzəriyyə, praktika, innovasiya" mövzusunda elmi-praktiki konfrans. BDU. Bakı, 2015, s. 294-301.

6. Cəmşidi M.M. İnfrastruktur sahələrinin iqtisadi funksiyaları / "Coğrafiya və təbii resurslar". Bakı, 2015, № 2., s. 87-90.

7. Cəmşidi M.M. Kənd təsərrüfatı sektorunda kəndlilərin məşğuliyyətinin gücləndirilməsi potensiallarının İST Proqramından istifadə etməklə təhlili. "İran İR-in Qeşm adasında kənd təsərrüfatı sektorunun gücləndirilməsi" mövzusunda konfrans (həmmüəlliflər Ə.Hüseynzadə, S.Moradifər, Q.Abbasi). Zəncan, 2013.

8. Cəmşidi M.M. Kənd yerlərində iqtisadi inkişaf istiqaməti üçün emal sənayesinin yaradılması və təkmilləşdirilməsi (Tarum nahiyəsində Abbər şəhəri). "İran İR-in Qeşm adasında kənd təsərrüfatı sektorunun gücləndirilməsi" mövzusunda konfrans (həmmüəlliflər Ə.Hüseynzadə, Q.Abbasi, S.Əminian). Zəncan, 2013.

9. Cəmşidi M.M. Regional inkişaf istiqamətində Zəncan ostanında turizmin nümunəvi zonalarının prioritetləri. Zəncan Universiteti "Əndişeyi Coğrafiyayi" adlı bölmə. Bahar fəsli, № 3, s. 91-111, Zəncan şəhəri, 2009 (həmmüəlliflər C.Eynali, Ə.Rumiyani).

10. M.Jamshidi. The role of electronic tourism industry on the interaction between Islamic Countrise (with Emphasize on the of Iran). Internatoinal Conferense on Religious Turizm and Tolerance/ 9-12 may, Konya, Turkey, 2013 (həmmüəlliflər M.Kalanrati, S.M.Mofrad, A.H.Zadeh, G.Abasi). pp 329-339.

**М.М.Джамшиди**

## Экономико-географические проблемы развития инфраструктурных отраслей в Занджанской области Исламской Республики Иран

В диссертационной работе рассматриваются экономико-географические проблемы функционирования инфраструктурных объектов, их современное состояние, проблемы обеспечения их устойчивого развития, роль при функционировании хозяйственных объектов и обслуживании населения. Научной новизной диссертации считается изучение хозяйственного значения и проблем территориальной организации инфраструктурных отраслей в Занджанской области Исламской Республики Иран. Диссертация состоит из введения, четырех глав, выводов и рекомендаций, списка использованной литературы. Во введении обосновывается актуальность темы, определяются цели и задачи, объект и предмет исследования, даются научно-методические основы, научная новизна, информационная база, а также научно-практическая ценность работы.

**Первая глава** посвящена изучению экономико-географической характеристики области, выделенной на ее территории провинциям и роли области в хозяйственной структуре страны. Здесь анализированы экономические функции, принципы размещения и влияние отдельных отраслей инфраструктуры на размещение хозяйственных объектов. Особо отмечается рол транспорта, энергетики и коммуникации.

**Во второй** главе диссертации рассмотрены влияние природного условия, демографического потенциала и экономической базы на развитие и функционирование инфраструктуры в области. Область имеет благоприятное природно-географическое условие и природные ресурсы. Но слабая экономическая база не позволяет функционированию инфраструктурных отраслей на современном уровне. Поэтому необходимо проведение более активной региональной политики и выделение финансовых ресурсов.

**В третьей главе** исследовано современное состояние и проблемы развития инфраструктурных отраслей в Занджанской области.

**В четвертой** главе проанализированы перспективы развития инфраструктурных отраслей в Занджанской области. Для этого использованы математические методы исследования. На основе моделирования определены факторы, влияющие на развитие этих отраслей, даны конкретные рекомендации.

По теме диссертационной работы опубликовано 10 работ.

**M.M.Jamshidi**

**Economic and geographical problems of development of branches of infrastructure in Zanjan province of Islamic Republic of Iran**

The dissertation deals with the study of economic and geographical problems of functioning and current state of the infrastructure facilities, problems of providing their sustainable development, their contribution to operation of enterprises and social services. The scientific novelty of the dissertation concerns the study of the economic significance, as well as the problems of territorial organization of the infrastructure facilities in Zanjan province of Islamic Republic of Iran.

The dissertation consists of the introduction part, the three chapters, the conclusion and recommendations, and also the list of literature. The introduction includes the substantiation of topicality of the research work, the definition of goals and objectives, the object and the subject of study work, the scientific and methodical bases, scientific novelty, the information base, as well as the scientific and practical values of the work.

The first chapter is devoted to the study of economic and geographical characteristics of the region, the smaller provinces located in this territory and the role of the region in the economic structure of the country. The economic functions, as well as the principles of distribution and the impact of certain branches of infrastructure on the distribution of economic entities are analysed. The emphasis is made particularly upon the role of transport, energy and communications.

The second chapter of the thesis deals with the impact of natural conditions, demographic potential and also economic base on the development and the operation of infrastructure in the region. The region has favourable natural and geographical condition and natural resources. However, the weak economic base does not allow the infrastructure to operate in accordance with modern requirements. Therefore, the conduction of more active regional policy and the allocation of financial resources are needed.

In the third chapter, infrastructure branches are analysed  current state and  problems of the development in Zanjan province.

In the fourth chapter, prospects of the development of the infrastructure branches in Zanjan province are analysed. In this connection, the mathematical method is used. The factors affecting the development of these industries are determined on the basis of modelling. The concrete recommendations are given.

10 works on the topic of the dissertation has been published.

AMEA-nın mətbəəsində çap olunub
Tiraj-100

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ГЕОГРАФИИ им. акад. Г.А. АЛИЕВА**

*На правах рукописи*

**МАГОМЕДКЯЗЫМ МАГОМЕДДЖАФАР ОГЛЫ ДЖАМШИДИ**

# ЭКОНОМИКО-ГЕОГРАФИЧЕСКИЕ ПРОБЛЕМЫ РАЗВИТИЯ ИНФРАСТРУКТУРНЫХ ОТРАСЛЕЙ В ЗАНДЖАНСКОЙ ОБЛАСТИ ИСЛАМСКОЙ РЕСПУБЛИКИ ИРАН

5401.01 – Экономическая география

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по географии

**БАКУ - 2016**